


# İran şahının edam etdirdiyi azərbaycanlı millət vəkili
## Mirzə Nurullah Xan

Məhəmməd Rəhmanifər

(əvvəli ötən sayımızda)

***Amma Səttar Xandan fərqli olaraq, Nurullah Xanın şücaət hekayəsi həmən müharibə ilə bitmədi. O, sağ qaldı və bir neçə il sonra Şeyx Məhəmməd Xiyabani hərəkatına (1920) qatıldı. Xiyabaninin Azərbaycan üzərində bir neçə aylıq hakimiyyəti dövründə Nurullah Xan Təbriz Nəzmiyyəsinə başçılıq edirdi. Səttar Xanı son savaşadək yalnız buraxmayan Nurullah Xan, Şeyx Məhəmməd Xiyabanini də heç zaman yalnız buraxmadı və hərəkatın son gününə qədər mübarizəyə davam etdi. Mərkəzi hökumət tərəfindən Xiyabani hərəkatı yatırıldıqdan sonra Nurullah Xan həbs edilərək zindana salındı. Lakin məşrutə hərəkatında onun şöhrəti və nüfuzu o qədər böyük idi ki, mərkəzi hökumət onu nə edam edə, nə də uzun müddət həbsdə saxlaya bildi.***

Nə Səttar Xanın və Şeyx Məhəmməd Xiyabaninin acı taleyi Nurullah Xanın azadlıqsevərlik iradəsini poza bildi, nə də həbslər və sürgünlər onun azadlıqsevər fəaliyyətini dayandıra bildi. Xiyabani hərəkatının Azərbaycanda məğlubiyyətə uğramasından az sonra başqa bir Azərbaycan övladı, Kolonel (polkovnik) Məhəmməd Tağı Xan Pesyan mərkəzi hökumətin saxtakarlıq və korrupsiya fəaliyyətinə qarşı silahlı üsyan (1921) başlatdı. Nurullah Xan bu hərəkatda da fəal iştirak edib, hərəkatın mərkəzi hökumət tərəfindən yatırılmasından sonra 1922-ci ilin yanvar ayında Təbrizdə ortaya çıxan başqa bir üsyana qatıldı. Təbriz jandarmının zabitlərinin İran silahlı qüvvələrini birləşdirmək üçün Rza Xanın jandarma və kazak qüvvələrini birləşdirmək planından narazı qalması mayor Əbülqasim Lahuti başda olmaqla, bir sıra jandarm zabitlərinin silahlı üsyana qalxmasına səbəb oldu. Rza Xana qarşı heç bir fürsəti əldən verməyən Nurullah Xan bu üsyana da qatılmışdı. Üsyan məğlubiyyətə uğradıqdan sonra Nurullah Xan uzun müddət həbsə salındı. Daha sonra isə doğulduğu Yekənlər məhəlləsindən çıxmaması şərti ilə sərbəst buraxıldı və beləliklə, doğulduğu yerdə həbs olundu.

***Nurullah Xan həbsdən çıxandan sonra Rza Xanın səltənətinin sonuna qədər Yekanat (Yekənlər) mahalında məskunlaşmağa məcbur oldu. Bu addım azadlıq qəhrəmanını zəncirləmək məqsədi ilə edilsə də, Nurullah Xan onların belə işlərlə onun humanitar və azadlıqsevər fəaliyyətinə mane ola bilməyəcəkləri qədər böyük bir adam idi. Bu illər ərzində o, rayonun inkişafı istiqamətində fəaliyyət göstərməklə yanaşı, rayon sakinlərinin maarifləndirilməsi və siyasi düşüncəsinin yüksəldilməsinə də çalışdı.***





1941-ci ilin avqustunda Müttəfiq qüvvələrin (sovet və ingilis) gəlişi ilə Rza şahın diktaturası süqut etdi və o, İranı tərk etmək məcburiyyətində qaldı. Beləliklə, illər boyu əzilmiş və tapdalanmış olan Azərbaycan xalqı yenidən canlanmağa, yenidən nəfəs almağa və yenidən ayağa qalmağa fürsət tapdı. 1941-1946-cı illər arasında Güney Azərbaycanda ortaya çıxan hadisələri, Azərbaycan Demokrat Firqəsinin və Azərbaycan Milli Hökumətin yaranması ilə bağlı macəraları daha əvvəldən elə bu layihənin çərçivəsində ayrı-ayrı yazılarda təsvir etdiyimiz üçün, məqaləni çox uzatmamaq ilə həmin sözləri burada təkrarlamaqdan çəkinəcəyik və sadəcə bir neçə kəlmə Nurullah Xanın fəaliyyətləri haqqında dilə gətirəcəyik.

Azərbaycan Demokrat Firəsinin yaranması ilə Səttar Xan və Xiyabaninin silahdaşı Mirzə Nurullah Xan, zərrə qədər tərəddüd etmədən Firqəyə qoşuldu. Az zaman sonra Firqənin Xoy şəhərindəki şöbəsinin sədri seçildi. Ayrıca Azərbaycan Milli Məclisi qurulduqda xoylular tərəfindən millət vəkili seçildi. O, həm də Azərbaycan Milli Hökumətində daxili işlər nazirinin müavini vəzifəsinə təyin edilib. Azərbaycan milli hökumətinin bir illik ömrünün son çağlarında isə Urmiya şəhərində baş vermiş əmin-amanlıq və hadisələrə görə Urmiya Nəzmiyyəsinin başçısı olaraq həmin şəhərə getdi. Azərbaycan Milli hökuməti yıxıldıqda isə ölkəni tərk etməkdən imtina edib, həbs edilərək acınacaqlı bir vəziyyətdə edam edildi. Nurullah Xanın xalq arasında nüfuzu və hörməti o qədər yüksək idi ki, onun İran şahlıq ordusu tərəfindən namərdcəsinə edam edilməsi Azərbaycan xalqının qəzəbinə səbəb olmaqla yanaşı, Azərbaycan Demokrat Firqəsinin əleyhdarları arasında belə etiraz və təlaşa səbəb oldu. Elə ki, Azərbaycanı işğal etmək üçün göndərilən Şah Ordusunun komandanı, briqada generalı Haşimi Nurullah Xanın edam edilməsindən narahat olduğunu bildirdi.




Bu Azərbaycan veteranının Məşrutə İnqilabından tutmuş Güney Azərbaycanda Azərbaycan Milli Hökumətinin qurulmasına qədər İran mərkəzi hökumətinin zülm və fitnəsinə qarşı baş verən bütün hərəkatlarda fəal və həvəslə iştirakı bu hadisələrin bir-birinə zidd olmamasının, əksinə tarixi davamlılıq kontekstində bir-birini tamamlayan məqamlar kimi qiymətləndirilməsinin ən tutarlı sübutudur.

***Onun qardaşı oğlu, çağdaş Azərbaycan yazıçısı Pərviz Yekaninin dediyinə görə, Nurullah Xan Azərbaycanı sevirdi və Azərbaycanın başı ucalığı və əzəməti uğrunda çalışmaqdan bir an belə qafil olmadı...***

*1941-ci ilin avqustunda Müttəfiq qüvvələrin (sovet və ingilis) gəlişi ilə Rza şahın diktaturası süqut etdi və o, İranı tərk etmək məcburiyyətində qaldı. Beləliklə, illər boyu əzilmiş və tapdalanmış olan Azərbaycan xalqı yenidən canlanmağa, yenidən nəfəs almağa və yenidən ayağa qalmağa fürsət tapdı. 1941-1946-cı illər arasında Güney Azərbaycanda ortaya çıxan hadisələri, Azərbaycan Demokrat Firqəsinin və Azərbaycan Milli Hökumətin yaranması ilə bağlı macəraları daha əvvəldən elə bu layihənin çərçivəsində ayrı-ayrı yazılarda təsvir etdiyimiz üçün, məqaləni çox uzatmamaq ilə həmin sözləri burada təkrarlamaqdan çəkinəcəyik və sadəcə bir neçə kəlmə Nurullah Xanın fəaliyyətləri haqqında dilə gətirəcəyik...*